**Azərbaycan Respublikası**
**Əmlak Məsələləri Dövlət Komitəsinin**
**Kollegiyasının 2012-ci il 07 dekabr tarixli,**
**08 nömrəli Qərarı ilə təsdiq edilmişdir**

# Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament[19]

## 1. Ümumi müddəalar

**1.1. Elektron xidmətin adı:** Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbulu;

**1.2. Elektron xidmətin məzmunu***:* Bu xidmət daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün müraciətin və sənədlərin qəbul edilməsi, elektron xidmət istifadəçisinə müraciətin qəbulu, işin icra mərhələləri barədə bildirişlərin verilməsi, sənədlərin verilməsindən imtina edildiyi hallarda bu barədə elektron xidmət istifadəçisinin məlumatlandırılması ilə bağlı qaydaları müəyyən edir;

**1.3. Elektron xidmətin göstərilməsinin hüquqi əsası:**
1.3.1 Azərbaycan Respublikası Prezidentinin 27 noyabr 2008-ci il tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nın 3.2-3.5-ci bəndləri və 4.2-ci bəndi;
1.3.2. "Dövlət orqanlarının *və Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılan publik hüquqi şəxslərin* elektron xidmətlər göstərilməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2011-ci il tarixli 429 nömrəli Fərmanının 2-1-ci hissəsi;[20]

*1.3.3. Azərbaycan Respublikası Prezidentinin 4 may 2015-ci il tarixli 516 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi haqqında Əsasnamə"nin 3.0.91-ci yarımbəndi və həmin Fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti haqqında Əsasnamə"nin 3.0.20-ci yarımbəndi;*[21]

1.3.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2011-ci il tarixli 191 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektron xidmət növlərinin Siyahısı"nın 24.3-cü bəndi.

**1.4. Elektron xidməti göstərən dövlət qurumunun adı:** Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin (bundan sonra – Xidmət) ərazi idarələri;

**1.5. Elektron xidmətin digər icraçıları:** yoxdur;

**1.6. Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** qismən avtomatlaşdırılmış;

**1.7. Elektron xidmətin icra müddəti:** Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nın 3.4-cü və 3.5-ci bəndlərinə uyğun olaraq daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi ilə bağlı 3 (üç) iş günü, ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün 2 (iki) iş günü;

**1.8. Elektron xidmətin göstərilməsinin nəticəsi:** Daşınmaz əmlak obyektlərinə ünvanların, ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi ilə bağlı sənədlərin istifadəçiyə təqdim edilməsi.

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

**2.1. Elektron xidmətin növü:** interaktiv

**2.2. Elektron xidmət üzrə ödəniş**: ödənişli:
daşınmaz əmlak obyektinin ünvanının təyin edilməsindən və ünvan barədə məlumatların verilməsindən imtina edilmədikdə aşağıdakı məbləğdə xidmət haqqı ödənilir:
2.2.1. daşınmaz əmlak obyektinin ünvanının təyin edilməsinə görə xidmət haqqının məbləği 20 manat,
2.2.2. daşınmaz əmlak obyektinin ünvanı barədə məlumatların verilməsi görə xidmət haqqının məbləği 10 manat;

Əsas - “Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ərazi idarələri tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə” Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 2009-cu il 31 iyul 4 nömrəli qərarı ilə təsdiq edilmiş göstərilən xidmətlər üzrə tarif cədvəlinin 5-ci və 6-cı hissələri;

Xidmət haqqının ödənilməli olduğu hesablar:

**Bakı**
VÖEN – 1500067091
Hes./hesabı - *AZ53AIIB33040019443901777109*
Bankın adı-Kapital Bank Nərimanov filialı
Kodu - 200093
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan-Bakı şəhəri, Ə.Əliyev küç. 13

**Abşeron**
VÖEN - 3100128721
Hes./hesabı- *AZ69AIIB33010019442301008123*
Bankın adı- Kapital Bank ASC Abşeron filialı
Kodu - 200231
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944

S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Xırdalan şəhəri, H.Əliev pr.255

**Sumqayıt**
VÖEN - 2900542251
Hes./hesabı - *AZ73AIIB33070019442500257125*
Bankın adı - Kapital Bank 1 saylı Sumqayıt filialı
Kodu - 200253
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Sumqayıt şəhəri, Koroğlu pr., 42-ci məhəllə

**Gəncə**
VÖEN - 2300338141
Hes./hesabı - *AZ73AIIB33010019442701997127*
Bankın adı - Kapital Bank ASC Gəncə filialı
Kodu - 200175
VÖEN - 9900003611
Müxbir hesab- AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Gəncə şəhəri, Veteranlar 2

**Xaçmaz**
VÖEN – 7700319461
Hes./hesabı - *AZ40AIIB33010019446600203166*
Bankın adı - Kapital bank Xaçmaz filialı
Kodu - 200662
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Xaçmaz şəhəri, H.Əliyev prospekti 9A

**Beyləqan**
VÖEN – 3900337341

Hes./hesabı - *AZ34AIIB33010019444000213140*
Bankın adı- Kapital bank Beylaqan filialı
Kodu - 200402
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK- AIIBAZ2X
Ünvan - Beyləqan şəhəri, M.Əsədov küç. 19

**Bərdə**
VÖEN – 4000207671
Hes./hesabı - *AZ50AIIB33040019443760229137*
Bankın adı - Kapital bank Bərdə filialı
Kodu - 200372
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Bərdə şəhəri, İ.Qayıbov 2

**Cəlilabad**
VÖEN – 8300200211
Hes./hesabı- *AZ83AIIB33010019446201669162*
Bankın adı - Kapital bank Cəlilabad filialı
Kodu - 200628
VÖEN- 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AİİBAZ2X
Ünvan - Cəlilabad şəhəri, Azərbaycan küç. 60

**Qəbələ**
VÖEN – 4400171661
Hes./hesabı - *AZ03AIIB33010019444900207149*
Bankın adı - Kapital bank Qəbələ filialı
Kodu - 200491
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944

S.W.I.F.T BIK - AIIBAZ 2X
Ünvan - Qəbələ şəhəri, Z. Əliyeva -6

**Lənkəran**
VÖEN – 2600339931
Hes./hesabı - *AZ80AIIB33010019443861469138*
Bankın adı - Kapital Bank Lənkəran filialı
Kodu - 200383
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ-2X
Ünvan - Lənkəran şəhəri, Nizami küç. 84-a

**Şamaxı**
VÖEN – 8400123551
Hes./hesabı - *AZ54AIIB33040019447300221173*
Bankın adı - Kapital bank Şamaxı filialı
Kodu - 200736
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Şamaxı şəhəri, Gənclər küçəsi 22a

**Şəki**
VÖEN – 3000146191
Hes./hesab - *AZ64AIIB33010019447000210170*
Bankın adı - Kapital bank Şəki filialı
Kodu - 200703
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Şəki şəhəri, M.F.Axundov prospekti 102A

**Şəmkir**
VÖEN – 8500260751

Hes./hesabı - *AZ42AIIB33010019444700202147*
Bankın adı - Kapital bank Şəmkir filialı
Kodu - 200479
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Şəmkir şəhəri, H.Əliyev 13

**Şirvan**
VÖEN – 2100188921
Hes./hesabı - *AZ20AIIB33010019444100251141*
Bankın adı - Kapital bank Şirvan filialı
Kodu - 200413
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Şirvan şəhəri, H.Əliyev pr. 20

**Tovuz**
VÖEN – 7300176971
Hes./hesabı - *AZ60AIIB33040019448200251182*
Bankın adı - Kapital Bank ASC Tovuz rayon filialı
Kodu - 200822
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Tovuz rayonu, Abulbəyli kəndi

**Ucar**
VÖEN – 7400080671
Hes./hesabı - *AZ71AIIB33010019447700219177*
Bankın adı - Kapital bank Ucar filialı
Kodu - 200770
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944

S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - H.Əliyev küç. Döngə 2 bina 25

**Yevlax**
VÖEN – 2200173251
Hes./hesabı - *AZ26AIIB33010019448001363180*
Bankın adı - Kapital Bank ASC Yevlax rayon filialı
Kodu - 200800
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Yevlax şəhəri, Qanboy Quliyev küç. 8A

**Zaqatala**
VÖEN – 5100243711
Hes./hesabı - *AZ48AIIB33070019443961292139*
Bankın adı - Kapital Bank Zaqatala filialı
Kodu - 200394
VÖEN - 9900003611
Müxbir hesab - AZ37NABZ01350100000000001944
S.W.I.F.T BIK - AIIBAZ2X
Ünvan - Zaqatala rayonu, Çökəkoba kəndi

**Ödəmə üsulu**: elektron ödəmə, köçürmə

**2.3. Elektron xidmətin istifadəçiləri:** fiziki və hüquqi şəxslər, dövlət orqanları, bələdiyyələr;

**2.4. Elektron xidmətin təqdim olunma yeri: (www.emdk.gov.az)**;

**2.5. Elektron xidmət barədə məlumatlandırma:** www.emdk.gov.az, www.emdkdedrx.gov.az, Qaynar xətt: 193, 148, tel: (+994 12) 510 85 31, e-mail: info@dedrx.gov.az.

**2.6. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:**

**2.6.1. Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi 2.6.2-ci yarımbənddə nəzərdə tutulmuş sənədlər əsasında aşağıdakı hallarda verilir:**
**2.6.1.1.** qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahəsi ayrıldıqda torpaq sahəsinə;
**2.6.1.2.** qanunvericiliyə uyğun olaraq daşınmaz əmlak obyektinin inşası və ya quraşdırılması aparıldıqda və ya obyekt müvafiq qaydada istismara qəbul edildikdə;
**2.6.1.3.** Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüququ tanındıqda;
**2.6.1.4.** daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alındıqda;
**2.6.1.5.** daşınmaz əmlak obyekti ayrı-ayrı hissələrə bölündükdə;
**2.6.1.6.** daşınmaz əmlak obyektlərinin birləşməsi nəticəsində yeni daşınmaz əmlak obyekti yarandıqda;

**2.6.2. Ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün tələb olunan aşağıdakı sənədlərin skan edilmiş surəti elektron formada təqdim olunur:**

2.6.2.1. arayış və digər sənədlərin verilməsi üçün ərizə (reqlamentə əlavə olunur)
2.6.2.2. elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər *dövlət qurumlarının* informasiya ehtiyatında olduqda, sənədlərin (şəxsiyyət vəsiqəsi, şəhadətnamə (Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnamə, dövlət və bələdiyyə orqanının əsasnaməsi və ya nizamnaməsi) nömrəsi və ya onu identikləşdirməyə imkan verən digər rekvizitlər;[22]
2.6.2.3. elektron xidmətin göstərilməsi üçün tələb olunan məlumatlar və sənədlər *dövlət qurumlarının* informasiya ehtiyatında olmadıqda:[23]

Fiziki şəxslər üçün:

1. Şəxsiyyəti təsdiq edən sənəd
2. Hüquq sahibinin adından ərizənin verilməsi səlahiyyətini təsdiq edən etibarnamə

Dövlət orqanları, bələdiyyələr və hüquqi şəxslər üçün:
1. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti, dövlət və bələdiyyə orqanının əsasnaməsinin və ya nizamnaməsinin rekvizitləri
2. Hüquqi şəxsin nümayəndəsinin səlahiyyətini təsdiq edən etibarnamə

**Qeyd:** dövlət orqanlarının əsasnamələrinin və bələdiyyələrin nizamnamələrinin Azərbaycan Respublikasının Hüquqi Aktlarının Dövlət Reyestrinə daxil edilməsi Xidmət tərəfindən yoxlanılır.

Xidmət elektron xidmətin göstərilməsi üçün xidmət haqqının real vaxt rejimində elektron formada ödənilməsi imkanını təmin etməlidir.

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

### 3.1. İnteraktiv elektron xidmətlər üçün sorğu

3.1.1. sorğunun formalaşdırılması: ərizə forması elektron xidmətin təqdim edildiyi internet ünvanından yüklənərək doldurulur və istifadəçi tərəfindən imza (elektron imza) ilə (dövlət və bələdiyyə orqanı, hüquqi şəxs olduqda imza və möhürlə) təsdiq edilməsindən sonra bu Reqlamentin 2.6-cı bəndində tələb olunan sənədlərin skan edilmiş surətləri ilə birlikdə elektron formada Xidmətin ərazi idarəsinə göndərilir;

3.1.2. sorğunun qəbulu; sorğu **www.emdk.gov.az** internet səhifəsində verildiyi gün qeydə alınır və Xidmətin ərazi idarəsi tərəfindən qəbul edilərək istifadəçiyə bunun təsdiqetmə bildirişi göndərilməlidir. Sorğunun (ərizənin) sonrakı icrası ilə bağlı istifadəçiyə bildiriş göndərilir.

### 3.2. Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi

3.2.1. Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər

ünvan məlumatlarının verilməsi üçün 2.6.2-ci yarımbənddə tələb olunan sənədlərin təqdim edilməməsi və ya təqdim edilən sənədlərdə aşkar olunan çatışmazlığın 3.2.3-cü yarımbənddə müəyyən edilmiş müddət ərzində aradan qaldırılmaması, habelə daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi ilə bağlı 2.6.1.1.-2.6.1.6-cı abzaslarda göstərilən halların mövcud olmaması vəziyyətində elektron xidmətin göstərilməsindən imtina edilir.
3.2.2. Elektron xidmətin göstərilməsindən imtina edildikdə, əsaslandırılmış imtina barədə və ya elektron xidmətin göstərilməsi barədə istifadəçiyə 1(bir) gün müddətində bildiriş göndərilir.
3.2.3. İstifadəçi tərəfindən təqdim edilən sənədlərdə imtina üçün əsas olmayan və aradan qaldırılması mümkün olan çatışmazlıq aşkar edildikdə bu barədə istifadəçiyə 1 (bir) gündən gec olmayaraq yazılı məlumat verilir. Onlar 1 (bir) gün müddətində aradan qaldırıldıqdan və bu barədə Xidmətin müvafiq ərazi idarəsinə məlumat verildikdən sonra, habelə imtina üçün əsas olmadığı halda sorğuya ölkə Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları"nın 3.4-cü və 3.5-ci (daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi ilə bağlı 3 (üç) iş günü, ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi üçün 2 (iki) iş günü) bəndlərində müəyyən edilmiş müddətlər ərzində baxılaraq istifadəçiyə elektron xidmət göstərilir.

**3.3. Sorğunun (ərizənin) icrası:**

**3.3.1.** İstifadəçi tərəfindən təqdim edilən sorğu qəbul edildikdən sonra Xidmətin müvafiq ərazi idarəsi tərəfindən qəbul edilir, xüsusi kitabda qeydə alınır və Xidmətin müvafiq ərazi idarəsinin şöbəsinə icra edilməsi üçün göndərilir;
**3.3.2.** Şöbədə sorğuya və ona əlavə edilmiş sənədlərə baxılır, daşınmaz əmlak obyektinə ünvan və ünvan reyestri məlumat bazasından arayış, ünvan xəritəsindən çıxarış, digər ünvan məlumatlarının istifadəçiyə təqdim edilməsi üçün Xidmətin müvafiq ərazi idarəsinə verilir;
**3.3.3**. Xidmətin müvafiq ərazi idarəsi tərəfindən bu Reqlamentin 1.8-ci bəndində nəzərdə tutulan sənədlər rəsmiləşdirilərək onun skan edilmiş surəti

dərhal istifadəçinin elektron ünvanına, kağız üzərində əsli isə poçt vasitəsilə göndərilir və ya birbaşa təqdim edilir.

**3.4. Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:**

**3.4.1**. nəzarət forması: Elektron xidmətin yerinə yetirilməsinə nəzarəti Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin rəhbəri və Xidmətin müvafiq ərazi idarəsinin rəhbəri həyata keçirirlər;

**3.4.2.** nəzarət qaydası: Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 27 sentyabr tarixli 935 nömrəli Fərmanı ilə təsdiq edilmiş "*Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında* kargüzarlığın aparılmasına dair Təlimat"la müəyyən edilmiş qaydada. [24]

**3.5. Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:**

**3.5.1.** İstifadəçilər daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsinə dair Xidmətin ərazi idarəsinin qəbul etdiyi qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən inzibati qaydada və məhkəməyə şikayət verə bilərlər;

**3.5.2.** İstifadəçilər elektron xidmətin göstərilməsi ilə Xidmətinin ərazi idarəsinin qəbul etdiyi qərarlardan və vəzifəli şəxslərin hərəkətlərindən inzibati qaydada (Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinə) və məhkəməyə şikayət verə bilərlər;

**3.5.3.** Şikayət ərizəsi "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 74-cü maddəsinə uyğun olmalıdır;

**3.5.4.** Şikayətə "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 78.1-ci maddəsində müəyyən olunmuş müddətdə baxılır;

**3.5.5.** Məhkəməyə verilən şikayətə Azərbaycan Respublikasının İnzibati Prosessual Məcəlləsi ilə müəyyən edilmiş qaydada baxılır.

ƏLAVƏ 1

**Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin ___________Ərazi İdarəsinin rəisi**

**_________________________**

| **Ərizə** | |
|---|---|
| Ərizənin verilməsi tarixi: | İcra müddəti : |

| **İstifadəçi haqqında məlumatlar** |
|---|
| Soyadı, adı, atasının adı (dövlət *qurumunun* və bələdiyyə orqanının, hüquqi şəxsin adı): [25] |
| Yaşadığı ünvan (Hüquqi ünvanı): |
| Hüquq sahibinin adından ərizənin verilməsi səlahiyyətini təsdiq edən etibarnamə:<br>Hüquq əldə edənin adından ərizənin verilməsi səlahiyyətini təsdiq edən etibarnamə:<br>(dövlət *qurumunun* və bələdiyyə orqanının, hüquqi şəxsin nümayəndəsinin səlahiyyətini təsdiq edən etibarnamə ) |
| Elektron poçt ünvanı |
| Əlaqə telefonları: |

Müraciət olunan əmlaka dair ünvan verilməsi üçün əsas olan hal:

- qanunvericiliklə müəyyən edilmiş qaydada torpaq sahəsi ayrıldıqda torpaq sahəsinə;

- qanunvericiliyə uyğun olaraq daşınmaz əmlak obyektinin inşası və ya quraşdırılması aparıldıqda və ya obyekt müvafiq qaydada istismara qəbul edildikdə;

- Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş hallarda və qaydada daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüququ tanındıqda;

- daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alındıqda;
- daşınmaz əmlak obyekti ayrı-ayrı hissələrə bölündükdə;
- daşınmaz əmlak obyektlərinin birləşməsi nəticəsində yeni daşınmaz əmlak obyekti yarandıqda;

| **Müraciətin məqsədi** |
|---|
| Daşınmaz əmlak obyektlərinə ünvanların verilməsi və ünvan reyestri məlumat bazasından arayışların, ünvan xəritələrindən çıxarışların, digər ünvan məlumatlarının verilməsi. |

İmza (MY):
Ərizənin göndərilmə tarixi:
Əlavə olunan sənədlər:
1. Fiziki şəxslər üçün:

1.1. Şəxsiyyəti təsdiq edən sənəd
1.2. Hüquq sahibinin adından ərizənin verilməsi səlahiyyətini təsdiq edən etibarnamə

2. *Dövlət qurumları*, bələdiyyələr və hüquqi şəxslər üçün:
2.1. Hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin surəti, dövlət və bələdiyyə orqanının əsasnaməsinin və ya nizamnaməsinin rekvizitləri
2.2. Hüquqi şəxsin nümayəndəsinin səlahiyyətini təsdiq edən etibarnamə

Təsdiqetmə bildirişi

| ƏMDK yanında Daşınmaz Əmlakın Dövlət Reyestri<br>Xidmətinin _____________ Ərazi İdarəsi |
|---|
| Ərizəçinin adı:<br>Ərizənin nömrəsi:<br>Müraciət tarixi:<br>Hazır olma tarixi:<br>Sənədlər götürüləcək otağın nömrəsi:<br>İş vaxtı: 9:00 -18:00 Fasilə 13:00 - 14:00 |